UOT 930.25
https://doi.org/10.59849/2710-0820.2026.1.146

Oruc Quliyev
tarix üzrə fəlsəfə doktoru,
Mərkəzi Elmi Kitabxananın direktor müavini,
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı,
Azərbaycan
oruj_guliev@mail.ru
https://orcid.org/0009-0004-8463-4517

ABBASQULU AĞA BAKIXANOVUN MAARİFÇİLİK, TARİXŞÜNASLIQ VƏ DİPLOMATİK FƏALİYYƏTİ AZƏRBAYCAN TARİXİNDƏ (ŞƏXSİ ARXİV MATERİALLARI ƏSASINDA)

Açar sözlər: *Abbasqulu ağa Bakıxanov, şəxsi arxiv fondu, XIX əsr tarixşünaslığı, maarifçilik ideyaları, sənəd*

Giriş

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda min illik tarixi əhatə edən qədim əlyazmalar, litoqrafiya üsulu ilə çap olunmuş XVIII-XIX əsrlərə aid olan əski kitablarla yanaşı, yaşı yüz əlli ildən artıq olan dövri mətbuat nümunələri, XIX-XX əsrlərdə fəaliyyət göstərmiş görkəmli elm və mədəniyyət xadimləri, yazıçı və şairlərimizin şəxsi arxiv fondları mühafizə olunmaqdadır. Belə fondlardan biri də Azərbaycan tarix elminin əsasını qoyan, maarifçi alim, yazıçı, şair, hərbi diplomat Abbasqulu ağa Bakıxanova məxsusdur.

A.Bakıxanov 1847-ci ildə Həcc səfərindən qayıdarkən Vadi-ye Fatimədə vəba xəstəliyinə tutularaq vəfat etdikdən sonra əlyazmaları, sənədləri və zəngin arxivi itirilmiş, dəyərli əlyazmaları Sankt Peterburqa aparılmışdır. İllər sonra Respublika Əlyazmalar Fondunun ilk direktoru Məmmədağa Sultanovun təşəbbüsü ilə A.Bakıxanovun şəxsi arxivi 1934-cü ildə toplanmağa başlamış və həmin sənədlər hazırda Əlyazmalar İnstitutunun şəxsi arxivində 1 nömrəli fondda yerləşdirilmişdir.

Əsas hissə

A.Bakıxanovun AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan şəxsi arxivi 57 saxlama vahidindən ibarətdir. Onun fondundakı materiallar İmperator Dəftərxanasının və Qafqaz Canişininin təliqələri, A.Bakıxanova aid məktubların fotosurətləri, fotoşəkillər, müxtəlif sənədlər və s.-dən ibarətdir. Həmin arxiv fondunu Əlyazmalar İnstitutunun əməkdaşı İradə Vəzirova araşdırmış və "Abbasqulu ağa Bakıxanovun şəxsi arxivinin təsviri" (Vəzirova (tərt. ed.), 2017) adı ilə kitab halında çapa hazırlamışdır.

A.Bakıxanova aid sənədlər 1934-1971-ci illər aralığında müxtəlif yerlərdən əldə edilmişdir. Bu barədə İ.Vəzirova arxiv təsvirinə yazdığı ön sözdə belə qeyd edir: *"Bu sənədləri Moskva, Sankt-Peterburq, Tiflis, Odessa şəhərlərindən, Gürcüstan Baş Arxiv İdarəsindən, Rusiyanın Dövlət arxivlərindən və bəzi muzeylərdən Azərbaycana gətirilməsi XIX əsr Qafqaz ədəbi mühitinin tanınmış tədqiqatçısı, Gürcüstan Panteonunun və Gürcüstan Yazıçılar muzeyinin o zamankı müdiri, tarix elmləri namizədi İvan Konstantinoviç Yenikolopovun əməyi nəticəsində hasilə gəlmişdi. Göründüyü kimi, təqdim olunan materiallar coğrafi baxımdan geniş bir ərazini əhatə edir"* (Vəzirova (tərt. ed.), 2017:4)

Lakin Gürcüstan Dövlət Arxivində ədibə aid bəzi sənədlər, təəssüf ki, naməlum səbəblərdən itmişdir. Bu sahədə araşdırmanın aparılması mənbəşünaslıq elmimiz qarşısında duran aktual problemlərdəndir.

Maarifçilik fəaliyyəti. A.Bakıxanov maarifçilik görüşləri Azərbaycanın ictimai-fikir tarixində mühüm yer tutur. O, XIX əsr Azərbaycan maarifçiliyinin banilərindən biri sayılır və

Şərq ənənələri ilə Avropa elmi düşüncəsini uzlaşdırmağa çalışmışdır. Bu səpkidə olan əsərləri haqqında məlumatlar onun şəxsi arxivində də öz əksini tapıb. Onlardan biri "Fars dilinin qrammatikası" əsəridir. Bu əsər "Qanuni-Qüdsi" adı ilə tanınır. Əsər 1826-1828-ci illərdə dərs vəsaiti kimi yazılmışdır. Fars dilinin qanunlarını öyrənən əsər "Hərflər", "Kəlmələr" və "Cümlə" adlı 3 fəsildən ibarətdir. A.Bakıxanov Rus-Qacar müharibəsi zamanı tez-tez İrana səfər etmiş, bu əsnada fars dilini öyrənmiş və bu dilin üzərində müşahidələr aparmışdır (Bakıxanov, 1831 (a)). Daha sonra ədib kitabı özü rus dilinə də tərcümə etmişdir (Бакиханов, 1841).

A.Bakıxanov rus çarı I Nikolaya məktubla müraciət edərək kitabın çapı üçün razılıq istəmişdir. Həmin məktubun fotosurəti A.Bakıxanovun şəxsi arxivində mühafizə olunmaqdadır. Məktubda oxuyuruq:

"Əlahəzrət İmperator.

Dağıstanda doğulan və Siz İmperator Həzrətlərinin sadiq təəbəsi kimi Fars-türk müharibəsində qraf Paskeviç Yerivaskinin rəhbərliyi altında xidmət etmiş zabit olaraq iştirak etməkdən qürur duyuram. Lakin mən Şərq dillərini öyrənib, tədqiq və onları tədris etməyi də həyata keçirə bilərəm...

...Hərbi xidmətdən asudə vaxtlarımda xalqa faydalı olmaq niyyəti ilə "Fars dilinin qrammatikası" adlı kitab yazmışam. Mən bu kitabı Əlahəzrət İmperatorun adı ilə bəzəmək üçün izn istəyirəm.

Sizin sadiq təəbəniz mayor Abbasqulu ağa Bakıxanov" (Бакиханов, 1829)

Maraqlıdır ki, kitabın fars dilində olan 1831-ci ilə aid (hicri 1247-ci il) ilk nəşrinin titul səhifəsində fars dilində: *"Mübarək padşahın göstərişi ilə çap edilmişdir",* (Bakıxanov, 1831:2 (a)) – cümləsi yazılmışdır.

Arxivdə qorunan başqa bir sənəddə İvan Paskeviç Yerivanski Rusiya İmperiyasının Xarici İşlər naziri qraf Karl Vasilyeviç Nesselrodeyə fransız dilində məktub ünvanlayaraq A.Bakıxanovun xidməti, onun savadı haqqında məlumat verərək onu yüksək qiymətləndirmiş və ədibin "Fars dilinin qrammatikası" kitabını yazdığını bildirmişdir (Erevanski, 1829).

Kitabın nəşri ilə bağlı razılıq haqqında sənəd də arxivdəki materiallar arasında qorunmaqdadır (Князю Петру Михайловичу, 1830). Sənəddə həmçinin A.Bakıxanovun əməyinə görə çar ona dəyəri 1500 rubl olan brilyant üzük hədiyyə edilməsi haqqında məlumat da yer alır.

Kim tərəfindən yazıldığı məlum olmayan başqa bir sənəddə isə əsərin rus dilinə tərcüməsi A.Bakıxanova tapşırılır və fars dilinin geniş yayılması məqsədilə öz hesabına 3 min nüsxənin nəşri üçün icazə istəyir (Графу Карлу Васильевичу Нессельроде, 1830).

Kitabın Sankt-Peterburqda, yoxsa Tiflisdə nəşr edilməsi məsələsi müzakirə edilir. Nəhayət 1831-ci ildə kitab Tiflisdə nəşr edilir (Bakıxanov, 1831 (a)). Ədibin şəxsi arxivində də həmin əsərin daşbasma nüsxəsi mühafizə olunur, daşbasmanın saxlama vahidi 52-dir (Bakıxanov, 1831 (b)). Kitab həmçinin institutunun kitabxanasında da, X-406/2859 şifrəsi altında qorunmaqdadır.

A.Bakıxanovun maarif sahəsində fəaliyyəti təkcə bu kitabla məhdudlaşmır. Ədib Azərbaycan cəmiyyətində təhsilin inkişafını nəzərdə tutan bir sıra islahatların tərəfdarı idi. O, öz dövründə müasir təhsil sisteminin qurulmasına çalışırdı və məktəblərin səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirirdi. A.Bakıxanov, həmçinin rus və Avropa mədəniyyətindən faydalanaraq, təhsil sahəsində yeniliklər tətbiq etməyə çalışmışdır.

Əlyazmalar İnstitutunun şəxsi arxivində müsəlman əhalinin savadlanması üçün məktəbin necə təşkil olunması haqqında ədibin 11 bənddən ibarət məktəb layihəsi də saxlanılmaqdadır. Layihənin mətni ilə tanış olaq:

"*1. Məktəbin Bakıda yerləşməsi mənim beynəlxalq əlaqələrimlə bağlı olaraq daha məqsədəuyğundur;*

2. Məktəb gərək 3 sinifli olsun. Birinci sinifdə 3 müəllim olmalıdır: biri rus, ikisi müsəlman. Rus müəllim birinci sinifdə əlifbanı, lüğəti və yazıb-oxumağı, ikinci sinifdə hesab, qrammatika və ritorikanı, üçüncü sinifdə isə coğrafiya və tarixi öyrətməlidir. Müsəlman müəllim birinci sinifdə fars və türk dilləri əlifbasını və dua etməyi öyrətməlidir. Fars dili bizim coğrafiyada çox önəmlidir. Asiyanın böyük bir hissəsində kitablar və məktublaşmalar 7 dildə aparılır. Əgər kimsə türk dillərindən birini öyrənsə, o zaman xalqlarla məktublaşaraq münasibət ya-

radacaq və kitab oxuya biləcəklər. İkinci və üçüncü siniflərdə müsəlman müəllimlər fars dilinin qrammatikasını, məktub yazmağı öyrədəcəklər;

3. Bu məktəbdə tədris olunan elmləri bitirdikdən sonra, şagirdlər öz istəkləri ilə 3 hissəyə bölünə bilərlər. Birinci hissə ya xidmətə, ya da öz ev xanımlığının arxasınca gedəcək; ikinci hissə ya Tiflis Gimnaziyasına, ya da Rusiyaya gedib təhsilini davam etdirəcək; üçüncü hissə isə burada ərəb dili və başqa elmləri öyrənmək üçün 4-cü sinifdə oxuyacaq. Mən onlara mənim kitabxanamdan istifadə etməyə icazə verəcəm. Sinifdə şagird sayı az olacaq. Bu, yalnız insanlara hökumətlərin müsəlman qanunlarının saflığını qorumaq məqsədini göstərmək üçündür;

4. Müəllimlərdən əlavə, məktəbə ruslar arasından bir nəzarətçi təyin olunmalıdır ki, o da maliyyə müdiri olacaq. Onların təyinatını mən həyata keçirmək istəyirəm. Belə olan halda işi bacarmayanı vəzifədən azad edə biləcək, daha yaxşı işləyəni isə mükafatlandıra biləcəyəm;

5. 18 yaşına kimi şagirdlər qəbul edilə bilər. Onlar məktəbdə onlar üçün təyin olunan otaqlarda yaşayacaqlar. Ödənişli təhsil alanlar isə yataqxanada yerləşdiriləcəklər. Yataqxanada yaşayan 24 nəfər şagir öz qohumları ilə birlikdə yaşaya bilərlər. Ümumilikdə məktəb 42 şagird təhsil alacaq. Belə olan halda şagirdlər dərslə tam məşğul ola biləcəklər. Şagirdlərdən hər hansı biri xəstə olarsa, o, sağalana qədər xüsusi bir otaqda yaşayacaq;

6. Məktəbdə təhsil alan bütün şagirdlər vətənpərvər ruhda olacaqlar və Rusiya İmperiyasının hədəfini anlayacaqlar;

7. Məktəb üçün 2 rus gözətçi və 3 müsəlman xidmətçi şagirdlərə qulluq etmək üçün lazımdır. Onlardan biri aşbaz, digəri çörək bişirən, o biri isə paltarları yuyandır. İki nəfər xidmət göstərən olmalıdır;

8. Şagirdlərin yerləşdirilməsi və dərslərin keçirilməsi üçün məktəb binası tikilməli və hər bir vəsaitlə təmin edilməlidir – kitablar, xəritələr, burada və Tiflisdə nəşr olunan rus dili danışıq lüğətləri və s.;

9. Məktəb xərci 3000 rubl təşkil edəcək. Belə ki, şagirdlərin yataqxana xərci 900 rubl, dəftərxana xərcləri 360 rubl, rus müəlliminin maaşı 500 rubl, nəzarətçinin maaşı 300 rubl, 2 müsəlman müəllimin maaşı 640 rubl, 2 rus gözətçi və 3 müsəlman xidmətçinin maaşı 300 rubl olacaqdır. Beləliklə, 3000 rubl vəsait lazımdır...;

10. Burada hamı bu müəssisəni məktəb yaradılmasını başa düşdüyünə görə, bunun üçün Baş İdarəedici cənab tərəfindən bütün xanlara, bəylərə və əyalətlərin nüfuzlu şəxslərinə ünvanlanan bir elan verilməlidir. Mən özüm onların yanına gedəcəyəm ki, bu müəssisənin məqsədini onlara izah edim. Yerli rəislərə isə bu işdə mənə öz səlahiyyətləri çərçivəsində köməklik göstərmələri tapşırılmalıdır;

11. Mənim vəzifəm, bu müəssisədə əsasən vaxtımı keçirərək, hər iki dili öyrənməyi asanlaşdırmaq məqsədilə öz yazılarım vasitəsilə onların qarşılıqlı əlaqələrini göstərmək, ümumi nizamı izləmək və yuxarıda qeyd olunan bütün tələblərin dəqiq icrasını təmin etməkdən ibarət olacaq. Mənim məktəblə əlaqəm birbaşa Baş İdarəedici şəxsdən asılıdır və ona öz fəaliyyətlərim və nailiyyətlərim barədə hesabat verməliyəm" (Бакиханов, 1832).

Göründüyü kimi, onun məktəb layihəsinin əsas məqsədi, gələcək nəsilləri maarifləndirmək və müasir dünya ilə ayaqlaşmalarını təmin etmək idi. A.Bakıxanovun yaratmaq istədiyi məktəb modeli, təhsil və maarifin əsas prinsiplərinə uyğun olaraq, şagirdlərin təkcə biliklərlə deyil, həm də əxlaqi dəyərlərlə yetişdirilməsini məqsəd qoyurdu. Bu yanaşma, onun cəmiyyətin təhsil və maarifləndirilməsi yolundakı böyük hədəflərinin bir hissəsi idi.

Layihənin 3-cü bəndində: *"Birinci hissə ya xidmətə, ya da öz ev xanımlığının arxasınca gedəcək* (Бакиханов, 1832), – ifadəsi məktəbdə təkcə oğlan uşaqlarının deyil, qızların da təhsil almasının mümkünlüyünü göstərir. Bu isə Bakıda qadınların dünyəvi təhsil alması üçün ilk təşəbbüsün 1832-ci ilə aid olduğunu sərgiləyir.

Müsəlman məktəbindəki dərslərin hansı mənbələr üzrə tədris olunması haqqında İ.K.Yenikolopov "Расписание уроков" (Dərs cədvəli) adlı məqaləsində həmin məktəbdə keçirilməsi nəzərdə tutulan dərslər haqqında məlumat vermişdir (Ениколопов, 1947).

A.Bakıxanovun həmin illərdə qələmə aldığı müxtəlif mövzulu dərslik və dərs vəsaitləri onun yeni yaradılacaq məktəbi tədris materialları ilə təmin etmək cəhdlərinin nəticəsi kimi qiymətləndirilə bilər. Bu sıraya "Kəşfül-qəra-

ib", "Ümumi coğrafiya", "Əsrarül-məlәkut", "Eynəl-mizan", "Təhzibül-əxlaq", "Kitabi-nəsihət" əsərlərini nümunə göstərmək olar. Həmin sırada əsas yeri isə, sözsüz ki, Azərbaycan tarixşünaslığında önəmli yeri və çəkisi olan "Gülüstani-İrəm" əsəri tutur.

"Gülüstani-İrəm" əsərinin 1926-cı ildə rus dilində nəşr edilmiş üz qabığının fotosurəti A.Bakıxanovun şəxsi arxivində 47 saxlama vahidi altında mühafizə edilir (Бакиханов, 1926). Bundan başqa A.Bakıxanovun "Əsrarul-məlәkut" (Bakıxanov, (a)) və "Riyazül-Qüds" (Bakıxanov, (b)) əsərləri də Əlyazmalar İnstitutunun əlyazma fondunda qorunmaqdadır.

A.Bakıxanovun təhsil sahəsindəki bu təşəbbüsləri dövrü üçün olduqca irəliləmiş və yenilikçi addım hesab olunurdu. Tədqiqata cəlb olunan sənədlər onu yalnız bir şair və filosof deyil, həm də öz zamanının görkəmli maarifçisi və ictimai xadimi kimi xarakterizə etməyə imkan verir.

"Gülüstani-İrəm" Azərbaycan tarixşünaslığının önəmli qaynaqlarından biri kimi. 1804-1813-cü illər Birinci Rusiya-Qacar, 1826-1828-ci illlər İkinci Rusiya-Qacar Müharibələri zamanı A.Bakıxanov İrana səfəri müddətində fürsətdən istifadə edərək çoxsaylı tədqiqatlar aparmışdır. Nəticədə o, ən böyük əsərini – "Gülüstani-İrəm"i ərsəyə gətirmişdir. Əsərdə müəllif şahların fərmanlarından, arxeoloji qazıntılardan, "Avesta"dan, rus, Azərbaycan, roma, yunan alimlərinin əsərlərindən, dini kitablardan və s.-dən mənbə kimi istifadə etmişdir. Bu üsul Şərq tarixşünaslığında bir yenilik idi.

Görkəmli tarixşünas, akademik Əbdülkərim Əlizadə "Gülüstani-İrəm"in 1970-ci ildə işıq üzü görən elmi-tənqidi mətninə yazdığı "Müqəddimə"də onu tarixşünaslıqda irəliyə doğru atılmış mühüm bir addım kimi xarakterizə edərək əsər haqqında yarırdı: *"...XIX əsr Azərbaycan tarixçiləri içərisində ilk dəfə A.Bakıxanov Azərbaycan tarixinə aid tədqiqat xarakterli əsər yazmış, bu məqsədlə Azərbaycanın qədim tarixinə dair yunan, Roma, bizans, erməni tarixçilərinin (nəsrani mənbələri nəzərdə tutulur – O.Q.), səyyahların, coğrafiyaşünasların əsərlərindən dəyərli material torplayaraq istifadə etmişdir. Orta əsrlərin tarixi hadisələrinə gəldikdə isə müəllif ərəb, fars və türk dillərində yazılmış məxəzlərdən geniş istifadə etmiş, hətta bəzən bu əsərlərə müqayisəli şəkildə yanaşmışdır. Bundan əlavə, o, Şərqin zəngin ədəbi əsərlərindən, xüsusilə Firdovsinin "Şahnamə"sindən və XII əsr böyük Azərbaycan mütəfəkkiri və şairi Nizami Gəncəvinin "İskəndərnamə", "Xosrov və Şirin" əsərlərindən, habelə yerli ədəbi-mənzum kitablardan da istifadə etmişdir. Bütün bunlarla kifayətlənməyən müəllif yazılı mənbələrdən əlavə, maddi mədəniyyət abidələrinə, tarixi hadisələr nəticəsində dağıdılmış şəhər və qalaların qalıqlarına nəzər salmış, xalq arasında yayılmış rəvayətlərdən, müxtəlif dövrlərdə zərb olunmuş sikkələrdən və bu kimi başqa materiallardan lazımınca istifadə etmiş, Şərq və o cümlədən Azərbaycan tarixi və mədəniyyətinə aid tədqiqat xarakteri daşıyan ədəbiyyata, həmçinin rus və Avropa dillərində yazılan əsərlərə də əsaslanmışdır. Bəzən o, bir sıra məsələlər haqqında "Avesta", "Zənd", "Quran" və s. bu kimi dini kitablara da müraciət etmişdir"* (Bakıxanov, 1970:5-6).

"Gülüstani-İrəm" əsərinin bir nüsxəsi Əlyazmalar İnstitutunun əlyazma fondunda M-193/18161 şifrəsi altında qorunur (Bakıxanov, (c)). Əsər 1902-ci ildə Seyid Əzim Şirvaninin oğlu Mir Cəfər tərəfindən farscadan tərcümə olunub, nəstəliq xətti ilə üzü köçürülmüşdür. Bundan başqa institutda əsərin digər nüsxələri də mühafizə edilir. Tarix elmləri doktoru, dosent Tahirə Həsənzadə "A.Bakıxanovun "Gülüstani-İrəm əsəri haqqında" adlı məqaləsində bu barədə qeyd edir:

"AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda aşağıdakı nüsxələri mövcuddur:

1. B-2268. Əlyazmanın 1-ci vərəqində Bakıxanovun qeydləri vardır. Onun polkovnik rütbəsinə keçirilməsi, aylıq maaşı və s. haqqında məlumat verilir.

2. B-2236. 1844-cü il. Katibi Kərim Şəkili Tiflisdə Qazaxlı Şeyxülislam Osman mədrəsəsində üzü köçürülmüşdür.

3. M-49. 1844-cü il.

4. B-217. 1861. Salyan. Katibi Hacı Tağı ibn Məhəmməd Şirvanidir.

5. B-2002. 1849-cu il.

6. B-19. 1866-cı ildə. Qubada üzü köçürülmüşdür.

7. B-2005. 1879-cu il. Katibi: Məhəmməd Əlqədaridir.

8. M-193. 1902-ci il. Seyid Əzim Şirvaninin oğlu Mir Cəfər tərəfindən 1902-ci ildə Azərbaycan dilinə tərcümə olunmuşdur. Əlyazma nüsxəsi Əlyazmalar İnstitutuna professor Bəkir Çobanzadənin kitabxanasından daxil olmuşdur" (Həsənzadə, 2024).

Bu əsər qədim zamanlardan 1813-cü il Gülüstan müqaviləsinədək olan Azərbaycan tarixini araşdırmaq üçün tarixçilər, eyni zamanda digər sahələrdə çalışan alimlər üçün mühüm bir mənbədir. Əsərin elmi əhəmiyyəti alimlər tərəfindən də yüksək qiymətləndirilmişdir. Onun son dövr əlyazma kataloqlarındakı qısa biblioqrafik təsviri ilə tanış olar: *"Birinci bölmədə müqəddimə olaraq Şirvan və Dağıstan məskunlaşma yerləri və hüdudları haqqında, İskəndərin Şirvandan keçib Dərbəndə getməsi, Qubad ibn Firus Sasaninin Dərbənd səddini təmir etməsi, bu ərazidə istifadə olunan dillər barədə məlumat verilir.*

İkinci bölmədə Həzrət Ömərin xilafəti zamanı Bukeyr ibn Abdullahın Şirvan, Əbdürrəhman Rəbiənin Ermənistan, Hüzeyfənin Dərbənd səmtinə, Əbu Ubeydə Cərrahın Yəzid ibn Əbdül Məlikin hökmylə bu yerlərə gəlib çıxmasından, Xəlifə Hişamın Dərbəndə gəlməsindən, Fərruxzad ibn Əxşican, Həlimə Bibi Heybət məscidinin təmir olmasından, Babəknanın zamanında atəşpərəstliyin zühurə gəlməsindən, rusların bu diyarı qarət etməsindən, Deyləm padşahlarından, Şeyx Əhməd və Şeyx Həmzənin qız nəslindən olan Şeyx İshaq İbrahimin bu yerlərə gəlməsindən, Əmir Çoban ibn Səlcuq hakimiyyətinin, Məlik Şah ibn Alp Arslanın Şirvana gəlməsindən və hakimiyyətindən bəhs edilir.

Üçüncü bölmə Xarəzmşahların (s.92), Moğolların, Hülakü xanın, Börkə xan ibn Cığatayın (s.94), Olcaytu xan Məhəmməd Xudabəndənin isna əşəriyyə (12-imam), şiəliyini qəbul etməsi, Özbək ibn Cücü Çingiz xan nəslinin Şirvana gəlməsi və Arpaxan Özbəyi bu yerlərdən xaric etməsi (s.95-96), Sahibqəran Əmir Teymur Gurqaninin əhvalatı (s.98), Qaraqoyunlu Türkmən padşahlarından İskəndər namın Şirvana gəlməsindən (s.107), Ağqoyunlu səltənətindən (s.108), Əmir Qara Yusifin bura gəlişindən (s.114) bəhs edilir.

Dördüncü bölmədə Səfəviyyə dövlətinin yaranması, dövlətçilik prinsipləri barədə məlumat verilir.

Beşinci bölmədə isə Nadir Şah, Rus hakimiyyəti, Knyaz Sisianovun Bakıda qətlə yetirilməsindən, Rus-İran sülh müqaviləsi və kitabın xətmindən bəhs olunur" (Kərimli, 2017:255-257).

İ.K.Yenikolopov "Müasirləri Bakıxanov haqqında" əsərinin müqəddimə hissəsində "Gülüstani-İrəm" əsəri haqqında qeyd edir: *"Bakıxanovun "Gülüstan-İrəm" əsərinin böyük əhəmiyyəti var, çünki bu əsər humanist baxışlarla zəngindir. Hətta çar Rusiyasının alimləri, onu çap etməyə qadağa qoymağa məcbur olsalar da, burada təqdim olunan "müxtəlif yerlər haqqında məlumatların çox önəmli olduğunu və Şirvanın və Dərbəndin tarixinin ən qədim dövrlərdən başlayaraq çox dərindən öyrənilməsinə dair dərslik qiymətində bir baxış təqdim etdiyini" gizlədə bilməmişdilər. Beləliklə, əsər "Qafqaz ölkələrinin tarixi və coğrafiyasına qiymətli bir əlavə olaraq, diqqət və təşviqə layiqdir""* (Ениколопов, 9; Ениколопов, (1975:7).

Ədibin şəxsi arxivində qorunan Əlyazmalar fondunun elmi katibi olmuş Sulduz Rüstəmovun İvan Konstantinoviçə yazıdığı məktubunda İ.K.Yenikolopovun Gürcüstan Dövlət Arxivində "Gülüstani-İrəm" əsərinin Moisey Zoxraboviçin sifarişi ilə qələmə alınması haqqında 14 misralıq şeirinə rast gəlməsi haqqında məlumat verir (Рустамов, 1956).

Əsərin sonunda verilən "Xatimə" də tarixşünaslıq elmimiz üçün qiymətlidir. Belə ki, nəticə kimi işlənmiş bu hissədə Azərbaycanın bir çox elm xadimi, filosof və şairi haqqında qiymətli məlumatlara rast gəlirik. Əski təzkirələr üslubunda işlənmiş bu hissədə ilkin mənbələrə istinad etməklə xalqımızın görkəmli elm və mədəniyyət xadimləri haqqında ensiklopedik məlumat verilir. Onlar sırasında Məhsəti Gəncəvi, Əbülüla Gəncəvi, Şeyx əbu Abdullah Əli ibn Məhəmməd Bakuyi, Həkim Şeyx Nizami Gəncəvi, Həsən əl-Əcəm Xaqani Şirvani, Fələki Şirvani, Mücirəddin Beyləqani, Mövlana Seyid Yəhya Bakuvi, Mövlana Şeyx Molla Yusif Məskuri, Seyid Zülfüqar Şirvani, Mövlana Əbdürrəşid bin Saleh Bakuyi, Mövlana Kəmaləddin Məsud Şirvani, Əbutahir Şirvani, Seyidhüseyn Şirvani, Müsahib Gəncəvi və başqalarının adlarına rəst gəlirik (Bakıxanov, 1970:197-220).

Diplomatik fəaliyyəti. Tarixdən məlumumuzdur ki, 1804-1813-cü illər Birinci Rusiya-Qacar müharibəsi nəticəsində 1813-cü ildə Gülüstan, 1826-1828-ci il İkinci Rusiya-Qacar müharibəsi nəticəsində isə 1828-ci ildə Türkmənçay müqaviləsi imzalanmışdır.

Arxivdə qorunan 15 nömrəli saxlama vahidində 30 iyul 1827-ci ildə yazılan məktubda ikinci Rus-Qacar müharibəsi zamanı Abbas Mirzə ilə sülh danışıqlarının təfsilatı haqqında məlumat da yer almışdır (Грибоедов, 1827).

"Abbas Mirzə və onun məmurlarının mənimlə danışarkən nümayiş etdirdikləri alçaldılmış tondan aydın görünür ki, onlar öz qüvvələrinin bizimkilərlə müqayisəli vəziyyəti barədə qəflətdə deyillər və reallığı dərk edirlər. Lakin onların hazırda təklif olunan şərtlər daxilində sülhü qəbul edəcəklərini gözləmək qeyri-mümkündür və bunun üçün qətiyyət lazımdır. Danışıqlarda vaxtı uzatmaq onlara daha çox xas olan xüsusiyyətdir. Şah şurasında hazırda üstünlükləri olan səslər Allahyar xana və qardaşı ilə birlikdə Sərdara məxsusdur; Onlar hələ də sülhə qəti şəkildə qarşı çıxırlar və öz şəxsi niyyətləri var: birincisi (Allahyar xan), öz əvvəlki rəyini müdafiə edir və qorxur ki, iş onun əsas təhrikçisi olduğu həmin müharibənin hesablaşma məqamına çatır; Sərdar və qardaşı isə İrəvan vilayətinin bizə güzəştə gedilməsi ilə öz sərvətlərinin mühüm mənbəyindən məhrum olurlar. Əgər İrəvan süqut etdikdən sonra farslar özlərini Azərbaycan paytaxtında təhdid altında görməzsə və hansısa gözlənilməz hal onların əvvəlki cəsarətlərini təkrar oyatmazsa, görünür, hazırda onlara təklif etdiyimiz şərtlərlə sülhün bağlanmasını gözləmək olar" (Грибоедов, 1827:25).

Bu məktub yazılan zaman İrəvan qalası rus qarnizonu tərəfindən mühasirəyə alınmışdı. Həmin ilin oktyabrın 1-də İrəvan qalası ruslara təslim oldu. Bu hadisədən sonra imperator I Nikolay qraf İvan Paskeviçi qalanın adına uyğun "Yerivanski" titulu ilə təltif etdi.

İ.Paskeviç rus qoşunlarına Cənubi Azərbaycana girməyi qadağan etsə də, komandan Eristovun rəhbərliyi ilə rus bölükləri oktyabrın 2-də Mərəndə, oktyabrın 13-də isə Təbrizə girdi. Təbriz tutulduqdan sonra ruslar üçün Tehrana yol açıldı. Nəticədə müharibə Rusiya İmperiyasının qələbəsi ilə nəticələndi və danışıqlar başladı. Lakin danışıqlar zamanı təzminat məsələsində çıxan narazılıqlara görə rus qoşunları 1828-ci il yanvarın 28-də Urmiyaya, fevralın 8-də isə Ərdəbilə daxil oldu. Bu hadisə müqavilənin bağlanmasını sürətləndirdi. Fevralın 10-da Cənubi Qafqazın bugünkü siyasi sərhədlərinin əsasını qoyan, şimali Azərbaycanın Rusiyanın, cənubunun isə İranın tərkibində qalmasını təsdiq edən Türkmənçay sülh müqaviləsi imzalandı.

"1826-cı ildə başlanan İkinci Rusiya-Qacar müharibəsi 1828-ci ildə Rusiya ordusunun Təbrizi işğal etməsi ilə nəticələndi. Qacarlar dövləti ağır məğlubiyyətə uğradı və sülh imzalamağa məcbur oldu. 1828-ci il fevralın 10-da Təbriz yaxınlığındakı Türkmənçay kəndində imzalanan müqavilə Azərbaycan xalqı üçün ağır nəticələr doğurdu. Bu sənədlə Azərbaycanın ərazi bütövlüyü kobud şəkildə pozuldu, xalqımız ikiyə bölündü. Müqavilənin ikinci maddəsi tarixdə "Şimali və Cənubi Azərbaycan" ifadələrinin meydana gəlməsinə səbəb oldu. Üçüncü, dördüncü və beşinci maddələrdə isə Azərbaycanın qədim torpaqlarının bölüşdürülməsi və sərhəd xəttinin çəkilməsi nəzərdə tutulurdu. Lakin bu faciənin ən dəhşətli nəticələrindən biri on beşinci maddədə öz əksini tapdı. Məhz bu bənd əsasən, ermənilər Qacarlar dövlətinin ərazisindən zorla köçürülərək Azərbaycanın Qarabağ, İrəvan, Borçalı və digər bölgələrinə köçürüldü. Bu, tarixi Azərbaycan torpaqlarında gələcək etnik qarşıdurmaların əsasını qoydu və erməni separatizmini formalaşdırdı. Azərbaycanın tarixi ərazilərinin parçalanması onun coğrafi sərhədlərinin süni şəkildə kiçilməsinə də səbəb oldu. İşğalçı imperiyalar tarixi torpaqlarımızı qanunsuz şəkildə öz aralarında bölüşdürərək beynəlxalq hüququ açıq şəkildə pozdular. Sözügedən müqavilə 16 maddədən ibarət idi. 1-ci maddədə tərəflər arasında "bundan sonra əbədi sülh, dostluq və tam razılıq" olacağı bildirilirdi; 2-ci maddə Gülüstan müqaviləsi üzrə qarşılıqlı öhdəliklərin başa çatdığını və onun Türkmənçay müqaviləsilə əvəz olunduğunu təsdiq edirdi; 3-cü maddə ilə Qacarlar dövləti, İrəvan və Naxçıvan xanlıqlarını Rusiyaya güzəştə getdiyini etiraf edirdi; 4-cü maddə sərhədləri müəyyənləşdirirdi: Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütüm adaların... Rusiya imperiyasına

məxsus olduğu tanındı. Müqaviləyə görə, Rusiyaya iyirmi milyon gümüş manat təzminat verilməli idi (6-cı maddə). Gülüstan müqaviləsində olduğu kimi yenə də Xəzər dənizində yalnız Rusiya hərbi donanma saxlaya bilərdi (8-ci maddə). 12-15-ci maddələr də ermənilərin Azərbaycan xanlıqlarının ərazilərinə köçürülməsi, onlara tanınan imtiyazları, əsirlərin qaytarılması və digər məsələlər qeyd edilmişdi. Türkmənçay müqaviləsinin imzalanması çox sayda erməni ailəsinin Qarabağ və İrəvan xanlıqlarına köçməsinə səbəb oldu" (Bağırlı, 2025).

Gülüstan və Türkmənçay müqavilələrin imzalanması zamanı A.Bakıxanov Rusiya tərəfdən tərcüməçi qismində iştirak etmişdir. Bunu onun şəxsi arxivində 45 saxlama vahidi altında mühafizə olunan rəsmin fotosurətindən də görmək mümkündür (Qacar Abbas Mirzənin rus general Paskeviçlə ilk görüş şəklinin fotosurəti, 1827). Həmin şəkildə Qacar Abbas Mirzənin rus general İ.Paskeviçlə 1827-ci ildə Dehxarqanda keçirilən görüşü təsvir edilib. A.Bakıxanov da həmin görüşdə Paskeviçin yanında iştirak edir. Bu rəsm rəssam Maşkov tərəfindən çəkilmişdir. Hər iki dövlət arasında diplomatik əlaqələrin qurulmasında göstərdiyi xidmətə görə A.Bakıxanov 1846-cı ildə İran şahı tərəfindən II dərəcli "Şir və Xurşid" ordeni ilə təltif edilmişdir. Lakin, təəssüf ki, orden ona təqdim edilənə kimi ədib artıq dünyasını dəyişmişdi. Bu barədə məlumat qeyd olunan şəxsi arxiv fondunda mühafizə olunmaqdadır (Долгорукий, 1846).

İ.Paskeviç Yerivanskinin Rusiya İmperiyasının Xarici İşlər naziri qraf Karl Vasilyeviç Nesselrodeyə 19 dekabr 1833-cü ildə yazdığı məktubda A.Bakıxanovun alicənab keyfiyyətləri, Rusiyanın İran siyasətini dərindən bilməsi və savadı ilə etibar qazandığını nəzərə alaraq aldığı məvacibini tam şəkildə ödəmək şərti ilə adının Xarici İşlər Nazirliyinin nəzdində saxlanılması tövsiyə olunur (Ериванский, 1833).

Bu sənəd-informasiya resursu göstərir ki, A.Bakıxanov XIX əsrdə Rusiya imperiyasının Qafqaz siyasətində yaxından iştirak etmiş azərbaycanlı dövlət xadimidir. O, Qafqaz Baş Hərbi İdarəsində Şərq dilləri üzrə mütərcim kimi çalışdığı dövrdə – 1819-1845-ci ilərdə imperiyanın diplomatik missiyası daxilində təmsil olunmuşdur. A.Bakıxanov Rusiya-Qacar dövləti münasibətlərinin tənzimlənməsində mühüm əhəmiyyət daşıyan diplomatik yazışmaların icrasında, eləcə də danışıqlar prosesində bilavasitə iştirak etmişdir. O, Qacar sarayı ilə aparılan rəsmi görüşlərdə tərcüməçi və siyasi məsləhətçi funksiyasını yerinə yetirmiş, həmçinin Azərbaycan xan ailələri ilə münasibətlərin qurulmasında vasitəçilik etmişdir. Lakin A.Bakıxanov xalqının gələcək tarixi ilə bağlı bəzi məsələlərdə yaxından iştirak etmək istəsə də, çox vaxt hökumət nümayəndələri müəyyən maneələrlə qarşılaşmışdır. Məsələn, Quba ərazisində 1837-ci ilin iyun ayında baş qaldıran kəndli üsyanları zamanı baron V.Q.Rozenin onu "xüsusi tapşırıq" vermək bəhanəsi ilə Tiflisə çağırması A.Bakıxanovun ciddi narazılığına səbəb olmuşdur. Lakin 1841-ci ildə o, Şimali Qafqazda çar ordu hissələrinin dağlılara qarşı keçirdiyi hərbi yürüşündə iştirak etmiş, tərəflər arasında kompramisin əldə olunmasında göstərdiyi fəallığa görə 1 yanvar 1842-ci il tarixində polkovnik rütbəsinə yüksəlmişdir. Bu və bu kimi tarixi faktlar onun şəxsi arxivindəki sənədlərdə əksini tapır.

Nəticə

Abbasqulu ağa Bakıxanovun AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan şəxsi arxiv fondu təkcə XIX əsr Azərbaycan tarixinin öyrənilməsi baxımından deyil, həm də maarifçilik, mənbəşünaslıq, ölkəşünaslıq və diplomatiya sahələrinin öyrənilməsi üçün də mühüm qaynaq rolunu oynayır. Bu şəxsi arxiv fonduna daxil olan sənəd-informasiya resursunun müxtəlif şəhərlərdən toplanması A.Bakıxanov irsinin beynəlxalq miqyasda əhəmiyyətli olduğunu nümayiş etdirir və ona olan marağın coğrafiyasını ortaya qoyur. A.Bakıxanovun maarifçilik ideyalarının sistemləşdirilməsi üçün onun Bakı şəhərində yaratmaq istədiyi məktəb layihəsi və müəllifi olduğu dərslik xarakterli əsərlərin kompleks təhlili milli təhsil tariximiz nöqteyi-nəzərdən əhəmiyyətlidir. Çünki A.Bakıxanov Şərq təhsil ənənələri ilə Avropa elmi düşüncəsini uzlaşdırmağa çalışan XIX əsrdə yaşamış azsaylı ziyalılarımızdandır. Onun hazırladığı məktəb layihəsində qadın təhsilinə dair dolayı işarələr onun dövrü üçün qabaqcıl mövqeyini nümayiş etdirir. A.Bakıxanovun dövlət qurumlarının diqqətini

cəlb edən "Qanuni-Qüdsi" dərsliyinə dair şəxsi yazışmaları tarixi reallığa aydınlıq gətirir. Müəyyən edilir ki, müəllifin fars dilinin qrammatikasına dair bu kitabının bilavasitə çarın dəstəyi ilə nəşri və rus dilinə tərcümə edilməsi imperiyanın daxili siyasətini ortaya qoymuş olur. Görkəmli mütəfəkkirin bəzi əsərləri isə milli əhəmiyyəti ilə seçilir. Məsələn, "Gülüstani-İrəm" əsəri mənbəşünaslıq baxımından yenilikçi metodologiyası ilə Azərbaycan tarixşünaslığında elmi tədqiqat ənənəsinin formalaşmasında həlledici rol oynamışdır. A.Bakıxanovun şəxsi arxivində qorunan bəzi sənədlər həm də onun Rusiya-Qacar imperiyası arasında diplomatik münasibətlərdə oynadığı mühüm rolu üzə çıxarır.

Beləliklə, A.Bakıxanovun Əlyazmalar İnstitutunun şəxsi arxiv fondunda qorunan sənədləri və müəllifin bəzi əlyazmaları onu yalnız görkəmli alim, mütəfəkkir və ədib kimi deyil, həm də XIX əsr Azərbaycan ictimai-siyasi fikrinin aparıcı simalarından biri kimi də xarakterizə etməyə əsas verir.

ƏDƏBİYYAT

1. Bağırlı, M. (2025, 9 fevral). Türkmənçay müqaviləsi Azərbaycan üçün ağır nəticələr doğurdu. *Respublika*. s.3 http://www.anl.az/down/meqale/respublika/2025/fevral/933929(meqale).pdf

2. Bakıxanov, A. (1831). *Qanuni-Qüdsi*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.52, 41 vərəq. (b)

3. Bakıxanov, A. (1831). *Qanuni-qüdsi*, Tiflis, 41 s. (a)

4. Bakıxanov, A. (1970). *Gülüstani-İrəm*, Bakı, Elm, 288 s.

5. Bakıxanov, A. *Əsrarul-məlәkut*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əlyazma fondu, B-3860. (a).

6. Bakıxanov, A. *Gülüstani-İrəm*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əlyazma fondu, M-193/18161, 138 vərəq. (c).

7. Bakıxanov, A. *Riyazül-Qüds*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əlyazma fondu, D-140/7472. (b).

8. Həsənzadə, T.A. (2024, 25 sentyabr). *Bakıxanovun "Gülüstani-İrəm əsəri haqqında"*, Kredo. s.5.

9. Kərimli, T. (layihə rəhbəri). (2017). *Azərbaycan multidissiplinar əlyazması: xəzinədən incilər*, Bakı, Hədəf Nəşrləri, 328 s.

10. (1827). *Qacar Abbas Mirzənin rus general Paskeviçlə ilk görüş şəklinin fotosurəti*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.45, 1 ədəd.

11. Vəzirova, İ. (tərt. ed.). (2017). *Abbasqulu ağa Bakıxanovun şəxsi arxivinin təsviri*, Bakı, Elm və təhsil, 200 s.

12. Бакиханов, А. (11 декабря 1829 года). *Письмо царю*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.1, 3 vərəq.

13. Бакиханов, А. (1841). *Краткая грамматика персидского языка*, Тифлись, Типография Я. и Д. Арзановыхъ, 97 с.

14. Бакиханов, А. (1926). *Гюлистан-Ирам*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.47, 1 ədəd.

15. Бакиханов, А. (20 февралья, 1832). *Проект*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.7, 9 vərəq.

16. (1830, 18 марта). *Графу Карлу Васильевичу Нессельроде* AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.2, 1 vərəq.

17. Грибоедов, А.С. (1827, 30 июлья). *Письмо командиру отдельного кавказского корпуса господину генералу от инфонтерии*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.15, 26 vərəq.

18. Долгоруки. (1846, 22 июнь). *Письмо Л.Г.Сеняниву*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.48, 1 vərəq.

19. Ениколопов, И.К. (1947, 10 декабря). *Расписание уроков*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.12, 2 vərəq.

20. Ениколопов, И.К. (1975). *Современники о Бакиханове*, Баку, Элм, 62 с.

21. Ениколопов, И.К. *Современники о Бакиханове*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.13, 11 vərəq.

22. Ериванский, И.П. (1833, 19 декабря). *Письмо Карл Василевич Несселроде*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.2, 2 səhifə.

23. (16 января, 1830). *Князю Петру Михайловичу* AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.2, 1 vərəq.

24. Рустамов, С. (1956, 31 марта). *Письмо И.Крнстантинович*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.33, 2 vərəq.

25. Erevanski, I.P. (1829, 30 décembre). *Lettre au comte Karl Vassilievitch Nesselrode*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunun şəxsi arxivi, Fond № 1, s.v.2, 1 vərəq.

Sumary

Oruj Guliyev

The enlightenment, historiographical, and diplomatic activities of Abbasgulu Agha Bakikhanov in the hıstory of Azerbaıjan (based on personal archive materials)

The article examines the multifaceted activities of Abbasgulu Agha Bakikhanov, a prominent representative of nineteenth-century Azerbaijani socio-intellectual thought, based on his personal archive preserved at the Institute of Manuscripts named after Muhammad Fuzuli of the Azerbaijan National Academy of Sciences. The main goal of the study is to provide a systematic analysis of A.Bakikhanov's scientific, enlightenment, historiographical, and diplomatic activities within the context of archival materials.

The research demonstrates that this archival collection, consisting of 57 storage units, constitutes a rich source of information on the history and cultural milieu of the nineteenth-century Caucasus, as it contains various official documents, correspondence, rare manuscripts, and photographic copies of certain materials.

Special attention is paid to A.Bakikhanov's enlightenment ideas. His work ***Qanun-e Qodsi***, the school project he developed, and his initiatives concerning educational reforms reflect the prominent enlightener's conceptual approach aimed at harmonizing Eastern and Western scholarly traditions. The article scientifically substantiates that early ideas regarding women's education were also articulated in Bakikhanov's school project. At the same time, his work ***Gulistani-Iram*** is presented as an innovative example in Azerbaijani historiography in terms of the comparative and critical use of historical sources, and its scholarly significance is supported by the views of contemporary researchers.

The article also highlights Bakikhanov's activities as a translator and diplomat in Russian-Qajar relations on the based of archival documents. The findings of the study indicate that Abbasgulu Agha Bakikhanov's personal archive allows him to be evaluated not only as a man of letters, but also as a versatile intellectual who played a significant role in the socio-political and scholarly life of nineteenth-century Azerbaijan. Therefore, his personal archive constitutes an important source for the study of Azerbaijani history.

Keywords: *Abbasgulu Agha Bakikhanov, personal archival collection, nineteenth-century historiography, enlightenment ideas, document*

Резюме

Орудж Гулиев

Просветительская, историографическая и дипломатическая деятельность Аббаскули Ага Бакиханова в истории Азербайджана (на основе материалов личного архива)

В статье исследуется многогранная деятельность выдающегося представителя общественно-научной мысли XIX века Азербайджана Аббаскули ага Бакиханова на основе его личного архива, хранящегося в Институте рукописей им. Мухаммеда Физули Национальной академии наук Азербайджана. Основная цель исследования – систематический анализ научной, просветительской, историографической и дипломатической деятельности Бакиханова в контексте архивных материалов. В результате исследования установлено, что данный архивный фонд, состоящий из 57 единиц хранения, представляет собой богатый информационный источник о Кавказе XIX века, включая различные официальные документы, письма, редкие рукописи и фотокопии некоторых материалов.

Особое внимание в исследовании уделяется просветительским идеям Аббаскули ага Бакиханова. Его произведение «Кануни-Кудси», разработанный им проект школы и инициативы по реформированию образования демонстрируют его концептуальные взгляды, направленные на синтез восточных и западных научных традиций. В статье также подчеркивается, что именно в проекте школы Бакиханов отражает научные основы для первых идей женского образования. В то же время произведение «Гюлистани-Ирам» представляется как инновационный пример в азербайджанской историографии с точки зрения сравнительного и критического использования источников, а его научное значение обосновывается множеством мнений современных исследователей.

Кроме того, в статье освещается деятельность Аббаскули ага Бакиханова как переводчика и дипломата в контексте российско-каджарских отношений, основанная на архивных документах. В результате исследования выясняется, что личный архив Аббаскули ага Бакиханова дает возможность оценить его личность не только как литератора, но и как многогранного интеллигента, сыгравшего важную роль в общественно-политической и научной жизни Азербайджана XIX века. Поэтому его личный архив является важным источником для изучения истории Азербайджана.

Ключевые слова: *Аббаскули ага Бакиханов, личный архив, историография XIX века, просветительские идеи, документы*